**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR MİQRASİYA PROSESİ QLOBAL PROBLEM KİMİ (BÖYÜK BRİTANİYA VƏ ALMANİYA NÜMUNƏSİNDƏ)

İxtisas: 5901.01 - "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Fəxri Siyavuş oğlu Qurbanzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Beynəlxalq münasibətlər və xarici siyasət» kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Siyasi elmlər doktoru, professor<br>**Vüqar Gəncəli oğlu Rəhimzadə** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru, professor<br>**Adil Mirabdulla oğlu Mirabdullayev** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Ləman Zahid qızı Qarayeva** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Rəşad Əsəd oğlu Sadıqov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | Siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri: | Siyasi elmlər doktoru, professor<br>**Elçin İldırım oğlu Əhmədov** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tarixin bütün dövrlərində mövcud olmuş miqrasiya prosesi hal-hazırda dünyanın bütün ölkələrində baş verməkdədir. Ölkələrdəki problem və inkişaf göstəricilərindən asılı olaraq bu proses bəzi ölkələrdə daha intensiv, bəzilərində isə daha yavaş şəkildə gedir. Miqrasiya dövlətin sosial-iqtisadi və siyasi həyatına da müxtəlif şəkildə təsir göstərir. O inkişafın əsası olduğu kimi, bir çox problemlərin yaranmasına da səbəb ola bilir.

Bu baxımdan dissertasiya mövzusunun aktuallığını aşağıdakı kimi əsaslandıra bilərik:

- Beynəlxalq miqrasiya problemi BMT tərəfindən iqlim dəyişikliyi, terrorizm, yoxsulluq, sülh və təhlükəsizlik, su və ərzaq problemi, əhali artımı və s. kimi milli sərhədləri aşan və heç bir dövlətin təkbaşına həll edə bilməyəcəyi qlobal məsələlər siyahısına salınmışdır. Bu problemlərin tənzimlənməsi isə daha yaxşı dünya və gələcək üçün vacibdir.

- Qeyd edək ki, miqrasiya insanların həyatını yaxşıya doğru dəyişmək gücünə malikdir. Bu baxımdan miqrasiya “2030-cu ilə kimi Dayanıqlı İnkişaf Gündəliyi”nin ayrılmaz tərkib hissəsidir. Onun bir çox məqsədləri də məhz miqrasiya ilə bağlıdır. Aydındır ki, Dayanıqlı İnkişaf Məqsədlərinə təhlükəsiz, nizamlı və müntəzəm miqrasiya olmadan nail olmaq mümkün deyil.

- Dünya üzrə miqrant sayı hər il artan tendensiya ilə davam etməkdədir. Belə ki, əgər 1990-cı ildə miqrant sayı 153 milyon idisə, bu rəqəm 2020-ci ildə 281 milyona çatmışdır. Bu isə dünya əhalisinin 3.6 %-i deməkdir. Xüsusilə, son 20 ildə miqrant sayı 107 milyon artmışdır. Qeyd edək ki, bu sadəcə beynəlxalq miqrantların sayıdır. Bundan əlavə, dünyada 763 milyondan artıq daxili miqrantın olduğu təxmin edilir. Bu isə o deməkdir ki, dünya üzrə hər 8 insandan biri öz yaşayış yerindən kənardadır[1]. Bu da miqrasiya probleminin nə qədər aktual olduğunun göstəricisidir.

- Müasir dövrdə qloballaşmanın təsiri ilə miqrasiya prosesi daha intensiv və davamlı xarakter almışdır. Xüsusilə, internet və

---

[1] Migration in the world: [Electronic resource] - 18 May 2022. URL:https://www.iom.sk/en/migration/migration-in-the-world.html

kommunikasiya vasitələrinin inkişafı və yayılmasının miqrasiya prosesinə təsiri onun qlobal məsələyə çevrilməsinə səbəb olmuşdur. Artıq məsafə anlayışı yox olur, insanlar dünyanın istənilən yerinə rahat bir şəkildə gedə bilirlər. Eyni zamanda, qloballaşma insanların istənilən məkan haqqında daha tez və asan məlumat almasına şərait yaradır ki, bu da şəxsin miqrasiya etmək qərarına birbaşa təsir edir.

- Həmçinin, miqrasiya prosesi olduqca mürəkkəb bir quruluşa malikdir, buna görə, onun öyrənilməsi hərtərəfli yanaşma tələb edir. Məsələn, miqrasiya prosesinin iştirakçıları qaçqın, məcburi köçkün, işçi miqrant və s. ola bilər. Bu iştirakçıların hər birinin fərqli xüsusiyyətlərə malik olması dövlətlər tərəfindən onlara fərqli yanaşmanın tətbiqini labüd edir. Son dövrlərdə qlobal iqlim dəyişikliyinin təsiri ilə artan miqrasiya nəticəsində "iqlim qaçqını" kimi yeni miqrant qurpları da yaranır. Bu da mövzunun aktuallığının göstəricisidir.

- Mövzu ilə bağlı nümunə olaraq Böyük Britaniya və Almaniya seçilməsinin əhəmiyyəti ondan ibarətdir ki, bu ölkələr miqrant sayına görə dünya üzrə ilk beşlikdə yer alırlar. Eyni zamanda, onların yerləşdiyi Avropa regionu dünya üzrə ən çox miqrantın yaşadığı regiondur.

- Miqrant sayının çox olması səbəbindən miqrasiya amili həm Böyük Britaniyanın, həm də Almaniyanın daxili və xarici siyasətində xüsusi yer tutur. Miqrasiyanın təsirlərinin araşdırılması üçün bu ölkələrin seçilməsi ona görə aktualdır.

- Bundan əlavə, bu ölkələr beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində ən aktiv fəaliyyət göstərən ölkələr hesab olunur. Bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatların ən böyük maliyyə donorlarından biri də məhz Almaniya və Böyük Britaniyadır. Buna görə onların bu sahədəki fəaliyyəti beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsi baxımından aktualdır.

- Qeyd edək ki, Almaniya və Böyük Britaniya azərbaycanlı gənclərin də təhsil miqrasiyası üçün əsas təyinat ölkələridir. Bugün Azərbaycan Respublikasından təhsil miqrasiyası önəmli yerə malikdir. Bu baxımdan bu ölkələrin miqrasiya siyasətinin xüsusiyyətlərini bilmək, onların bu istiqamətdə apardığı miqrasiya siyasətini öyrənmək ölkəmiz üçün də aktual hesab olunur.

Dissertasiyada əsasən xarici miqrasiya proseslərinin yaratdığı təsirlər və səbəbləri araşdırılır. Belə ki, daxili miqrasiya bütün ölkələrdə mövcuddur. Bu proses ölkədaxili olduğu üçün onun təsirləri də lokal xarakter daşıyır. Lakin, xarici miqrasiya təkcə mənşə ölkəsinə deyil, eyni zamanda, təyinat ölkəsinə, hətta tranzit ölkələrə də təsir edir. Bu cür miqrasiya prosesinin təsirləri daha qlobal olub, onun təzimlənməsi, səbəblərinin müəyyənləşdirilməsi və aradan qaldırılması da labüddür. Həmçinin, bu prosesin iştirakçıları özləri ilə bərabər mənşə ölkəsinin mədəniyyətini və ənənələrini apardığına görə onların təsiri daha aydın və hiss ediləcək səviyyədə olur.

Dissertasiya işinin müxtəlif bölmələrini araşdırarkən, Azərbaycan, türk, alman və ingilis dillərində olan elmi ədədbiyyat və mənbələrə müraciət olunmuşdur.

Yerli tədqiqatçılardan F.Abdullayevin "Müasir Azərbaycanda miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq" və "Azərbaycan Respublikasının milli təhlükəsizliyinin qorunmasında miqrasiya siyasətinin rolu" əsərlərində miqrasiya prosesi müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Qeyd edilən tədqiqatlarda miqrasiya prosesi və Azərbaycanda miqrasiya siyasəti haqqındakı fikirlər və verilən tövsiyyələr mühüm əhəmiyyət kəsb edir[2].

M.Sərdarovun "Qloballaşma və miqrasiya siyasəti" əsərində qloballaşma fenomeninin həyatımızın bütün sferalarına təsiri haqqında məlumat verilir, qloballaşma dövründə miqrasiya proseslərinin əsas xüsusiyyətləri şərh edilir[3].

N.Durmazoğlunun "Qloballaşma dövründə Avropa İttifaqı ölkələrinin miqrasiya siyasəti" əsərində Aİ-nin apardığı miqrasiya siyasəti təhlil olunaraq, miqrasiya prosesinin tənzimlənməsi istiqamətində Aİ tərəfindən görülən tədbirlər tədqiq olunur[4].

---

[2] Abdullayev, F. Müasir Azərbaycanda miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq / F.Abdullayev. - Bakı: Elm və Təhsil, - 2009. - s.327; Abdullayev, F. Azərbaycan Respublikasının Milli təhlükəsizliyinin qorunmasında miqrasiya siyasətinin rolu / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. /- Bakı, 2011. -s.162.

[3] Sərdarov, M. Qloballaşma və miqrasiya siyasəti / M.Sərdarov. -Bakı:Təknur,- 2010.- s.124

[4] Durmazoğlu, N. Qloballaşma şəraitində Avropa İttifaqı ölkələrində miqrasiya siyasəti / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. /- Bakı, 2022. - s.176

E.Nəsibovun "Miqrasiyanın əsasları" kitabında isə miqrasiya anlayışı və ona müxtəlif elmi yanaşmalar, miqrasiya prosesinin formaları, səbəbləri və təsirləri tədqiq olunur, dünyanın əsas immiqrasiya mərkəzləri və bu mərkəzlərdəki miqrasiya prosesinin xüsusiyyətləri haqqında geniş məlumat verilir[5].

Tədqiqat işi aparılarkən qərb tədqiqatçılarının bu sahədə apardıqları elmi araşdırmalara da müraciət olunmuşdur. Bu baxımdan Stefan Kasl və Mark Miller tərəfindən yazılmış "Miqrasiya dövrü-Müasir dünyada beynəlxalq miqrasiya hərəkətləri" kitabında beynəlxalq miqrasiya axınları və onun təsirləri tədqiq edilir[6]. E.G.Ravenştaynın "Miqrasiya qanunları" adlı məqaləsi miqrasiya sahəsində ilk nəzəri tədiqat hesab olunur. Miqrasiyanın baş verməsinin əsas səbəbləri, istiqamətləri və nə üçün baş verməsi izah edilir[7]. D.B.Griqin "Ravenştayn və miqrasiya qanunları" məqaləsində isə Ravenştaynın miqrasiyanın səbəbləri ilə bağlı yazdıqları sistemləşdirilir və miqrasiya ilə bağlı 11 əsas qanunauyğunluq müəyyən olunur[8]. L.A.Sjaastadın "İnsan miqrasiyasının faydaları və xərcləri"[9], həmçinin, E.S.Linin "Miqrasiya nəzəriyyəsi"[10], V.Petersonun "Miqrasiyanın ümumi tiplologiyası"[11], J.R.Harris və M.Todaronun "Miqrasiya, işsizlik və inkişaf"[12], O.Ştark və

---

[5] Nəsibov, E. Miqrasiyanın əsasları. Miqrasologiya, Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. / E.Nəsibov. -Bakı: Elm və Təhsil, - 2014. -s.240

[6] Castles, S. Göçler Çağı- Modern Dünyada Uluslararası Göç Hareketleri / Miller, J. M., (Çev.), B. U. Bal ve İ. Akbulut, - İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları. – 2008. - s.500

[7] Ravenstein, E. G. The Laws of Migration // Journal of the Royal Statistical Society, - 1889. Vol.52, № 2,- p. 167-235

[8] Grigg, D. B. Ravenstein, E. G.and "The Laws of Migration."// Journal of Historical Geography, -1977. Vol. 3, № 1, - p. 41-54.

[9] Sjaastad, L.A. The Costs And Returns Of Human Migration// Journal of Political Economy, - 1962. № 70(5-2),- p.80-93.

[10] Everett, S. L. A Theory of Migration // Demography journal, - 1966. Vol 3. № 1, -p. 47–57.

[11] Petersen, W. A General Typology of Migration // American Sociological Association Stable,- 1958. Vol. 23, № 3, - p. 256–266.

[12] Harris, J.R. Migration, Unemployment And Development: A Two-Sector Analysis/ , Michael, P. T. // The American Economic Review, - 1970. № 60(1). - p. 126-142.

D.E.Blumun “Əmək miqrasiyasının yeni iqtisadiyyatı”[13] məqalələrində miqrasiya prosesinə dair müxtəlif elmi nəzəriyyələr irəli sürülərək, miqrasiya prosesinin baş vermə səbəbləri müxtəlif aspektlərdən izah edilir və miqrasiya proseslərinin əsas səbəbinin iqtisadi fərqlər olduğu göstərilir.

Eyni zamanda, R.Robertsonun “Qloballaşma: sosial nəzəriyyə və qlobal mədəniyyət” əsəri qloballaşmasının təsirləri, onun sosial və mədəni təzahürlərinin miqrasiyaya təsirlərini araşdırmaq baxımından əhəmiyyətlidir[14]. P.Stalkerin “Miqrasiya trendləri, Avropada miqrasiya siyasəti” əsərində İkinci Dünya müharibəsindən sonra Avropaya əsas miqrant axınları araşdırılır və ölkələrin miqrasiya ilə bağlı apardıqları siyasətlər təhlil olunur[15]. Həmçinin, G.Sturge, A.S.Ştofer, T.Grant, A.P.Vilson, S.D.Fluqbaylın əsərləri də miqrasiyanın təsirləri, Böyük Britaniya və Almaniyada miqrasiya proseslərinin müxtəlif aspektlərdən araşdırılması baxımından əhəmiyyətlidir[16].

Dissertasiya mövzusu ilə bağlı türk tədqiqatçıların da əsərləri böyük əhəmiyyət kəsb edir. Bu baxımdan B.Kayanın “Qloballaşma dövründə miqrasiya, dəyərlər və maraqlar baxımından Aİ-nın və Türkiyənin miqrasiya siyasətlərinin suriyalı miqranlar üzərindən

---

[13] Stark, O. The New Economics of Labor Migration / Bloom, D.E., // The American Economic Review, - 1985. Vol.75, № 2, -p.173-178.

[14] Roland, R. Globalization: Social Theory and Global Culture /. R.Ronald.-London: Sage Publications, -1992. -p.224

[15] Stalker, P. Migration Trends and Migration Policy in Europe// International Migration,-2002. Vol. 40, №. 5, - p.150-179

[16] Sturge, G. Migration statistics. : [Electronic resource] – 24 May 2024, URL: https://researchbriefings.files.parliament.uk/documents/SN06077/SN06077.pdf; Stouffer, A. S. Intervening Opportunities: A Theory Relating Mobility and Distance // American Sociological Review,- 1940, Vol 5, № 6. -p. 845-867; Grant,T. India in the UK: The diaspora effect : [Electronic resource] - London, 2020, URL: https://www.grantthornton .co.uk/globalassets/1.-member-firms/united-kingdom/pdf/documents/india-in-the-uk-the-diaspora-effect.pdf; Wilson, A.P. Trafficking Risks for Refugees: [Electronic resource] - Lincoln, - 2011. URL: https://digitalcommons.unl.edu/cgi/viewcontent.cgi?article=1003&context=humtraffconf3; Pflugbeil, S.D. Auswirkungen der internationalen Migration auf die Bundesrepublik Deutschland / Dissertation zur Erlangung des Grades eines Doktors der Wirtschaftswissenschaft /- Regensburg, 2005. - p. 264.

analizi" əsərində qloballaşma dövründə yeni xüsusiyyətlər qazanmış miqrasiya prosesi müxtəlif aspektlərdən təhlil edilmiş, Aİ-nin miqrant böhranı ilə mübarizəsi və bu sahədə gördüyü tədbirlər araşdırılmışdır[17].

K.Çakının "Avropa İttifaqı ölkələrinin miqrantları inteqrasiya etmə siyasəti" əsərində Avropada miqrant problemi, onun yaratdığı problemlər, qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri, Aİ ölkələrində inteqrasiya səviyyəsi araşdırılmış və bu istiqamətdə görülən tədbirlər tədqiq edilmişdir[18].

Y.Görenin "Brexit sonrası miqrant sayının azalmasının Birləşmiş Krallıq iqtisadiyyatında makroekonomik göstəricilərə təsiri" əsərində Böyük Britaniyanın Aİ-dən ayrılmasında miqrant probleminin rolu göstərilmiş, Brexitdən sonrakı mərhələdə miqrant sayında baş verən dəyişikliklərin Böyük Britaniyaya təsirləri araşdırılmışdır[19]. Bundan əlavə, C.Civak, S.Çağlayan, F.Güllüpınar, T.Mehmet, U.A.Büşra və başqalarının əsərləri də mövzunun tədqiqi baxımından əhəmiyyətlidir[20].

Dissertasiya mövzusu araşdırılarkən bu sahədə qəbul edilmiş beynəlxalq aktlara müraciət edilmiş, BMqT-nin rəsmi statistik məlumatlarından istifadə edilmiş, eyni zamanda, Almaniya və Böyük

---

[17] Başak, K. Küreselleşme çağında göç: degerler ve çıkarlar ikileminde AB ve Türkiye göç politikalarının suriyeli göçmenler üzerinden analizi / uluslararası ilişkiler doktora tezi / -Düzce, 2023, - s. 562

[18] Çakı, K. Avrupa Birliği ülkelerinin göçmen entegrasyon politikası / uluslararası ilişkiler yüksek lisans tezi / -Bitlis, 2022.- s.120

[19] Gören, Y. Brexit sonrası göçmen sayısında azalmanın Birleşik Krallık ekonomisinde makroekonomik göstergelere etkisi / ekonomi yüksek lisans tezi/- İstanbul, 2021, - s. 126

[20] Civak, C. Suriye krizi çerçevesinde Avrupa Birliğinin göç politikası: Almanya örneği / uluslararası ilişkiler yüksek lisans tezi/ - Bolu, 2019 - s. 145; 34; Çağlayan, S. Göç kuramları, göç ve göçmen ilişkisi // Muğla: "Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi(İLKE), – 2006. № 17,- s.67-91; Güllüpınar, F. Göç olgusunun ekonomi politiği ve uluslararası göç kuramları üzerine bir değerlendirme // Yalova Sosyal Bilimler Dergisi,-2012, № 4, - s.53-85; Mehmet, T. Uluslararası göç ve teorileri // Premium e-Journal of Social Sciences (PEJOSS), -2020. Cilt.4, № 8, - s. 274-282; Büşra, U.A. Göç kavramı ve kuramları // Journal of Social and Humanities Sciences Research,- 2021. Cilt 8. № 72, - s. 1749-1758.

Britaniyanın miqrasiya göstəricilərini əks etdirən məlumatlar dövlət statistika idarələrinin rəsmi saytından götürülmüşdür.

Qeyd edək ki, yuxarıda sadalanan ədəbiyyatlarda miqrasiya məsələsi müəyyən aspektlərdən araşdırılsa da, kompleks şəkildə miqrasiya prosesinə yanaşılmamışdır. Eyni zamanda, konkret ölkə nümunəsində miqrasiya prosesinin təsirləri, onların miqrasiya siyasəti və bu siyasətin ölkəmizdəki miqrasiya proseslərindəki rolu araşdırılmamışdır. Dissertasiyada Böyük Britaniya və Almaniya nümunəsində qeyd edilən məsələlər araşdırılmaqla yanaşı Azərbaycandan emmiqrasiya prosesinə təsirləri də göstərilmişdir. Bu da disertasiya işinin mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir dövrdə qlobal məsələyə çevrilən miqrasiya prosesi, tədqiqatın predmetini Almaniya və Böyük Britaniyada miqrasiya prosesinin xarakterik xüsusiyyətlərinin, daxili və xarici siyasətə təsirlərinin araşdırılması, onların miqrasiya siyasətinin əsas istiqamətlərinin tədqiq edilməsi və bu ölkələrin beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsindəki rolunun araşdırılması təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədini qloballaşma dövründə miqrasiya prosesini kompleks şəkildə təhlil etmək, dünyanın əsas immiqrasiya ölkələrindən hesab olunan Almaniya və Böyük Britaniya nümunəsində miqrasiya proseslərini araşdıraraq, miqrantların nə üçün bu ölkələri seçdiyini, eyni zamanda, bu ölkələrin miqrantları cəlb edən miqrasiya siyasəti aparmalarının əhəmiyyətini, bu ölkələrin digər dövlətlərlə əməkdaşlıqlarında miqrasiyanın rolunu, miqrasiya sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıqlarının istiqamətini göstərməkdir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuş və yerinə yetirilmişdir:

- Qloballaşma dövründə miqrasiya prosesinin dəyişən xarakterik xüsusiyyətlərini göstərmək.
- Miqrasiya prosesinin səbəblərini, formalarını, iştirakçılarını düzgün müəyyən edilməsi məqsədi ilə onu hərtərəfli təhlil etmək;
- Miqrasiyaya əsas nəzəri yanaşmaları təhlil edərək, onun baş vermə səbəblərini tədqiq etmək;

- Cəlbetmə və təhriketmə nəzəriyyəsindən çıxış edərək, Almaniya və Böyük Britaniyada immiqrasiya prosesi və cəlbedici amillər arasındakı əlaqəni təhlil etmək;
- Almaniya və Böyük Britaniyada miqrasiya prosesinin əsas xüsusiyyətlərini təhlil etmək;
- bu ölkələrin miqrasiya siyasətinin formalaşmasına təsir edən amilləri və onların miqrasiya siyasətlərinin ölkə üçün faydalı nəticələrini göstərmək;
- bu ölkələrin xarici siyasəti və miqrasiya amili arasında əlaqəni göstərmək;
- Almaniya və Böyük Britaniyanın beynəlxalq miqrasiya proseslərinin tənizmlənməsindəki rolunu təhlil etmək;
- Azərbaycandan baş verən emmiqrasiya prosesinə Almaniya və Böyük Britaniyanın miqrasiya siyasətinin təsirini təhlil etmək;

**Tədqiqat metodları.** Dissertasiyanın metodoloji hissəsi tədqiqatın həyata keçirilməsində istifadə edilən əsas metodları və yanaşmaları əhatə edir. Tədqiqatda analiz və sintez metodları əsas rol oynayır. Analiz metodu miqrasiya proseslərinin müxtəlif aspektlərini ayrılıqda təhlil etmək üçün istifadə olunub, sintez metodu isə əldə olunan məlumatların birləşdirilərək ümumi nəticələrin çıxarılmasına imkan verib.

İnduksiya və deduksiya metodları müasir miqrasiya prosesinin qlobal və regional xüsusiyyətlərini təhlil edərkən istifadə olunub. İnduksiya metodu Böyük Britaniya və Almaniya kimi konkret nümunələrdən ümumi qanunauyğunluqların çıxarılmasında, deduksiya metodu isə miqrasiya üzrə ümumi nəzəriyyələrdən çıxan nəticələrin konkret vəziyyətlərə tətbiq olunmasında tətbiq edilib. Sistemli yanaşma metodu miqrasiyanın sosial, iqtisadi və siyasi aspektlərinin qarşılıqlı təsirini nəzərə alaraq miqrasiya prosesinin kompleksliyini daha aydın şəkildə təqdim etməyə imkan verib. Müqayisəli təhlil metodu isə Böyük Britaniya və Almaniya arasında miqrasiya siyasətlərinin fərqlərini və oxşarlıqlarını müqayisə etmək və hər iki ölkədəki miqrasiya təcrübələrinin qlobal miqrasiya siyasətinə təsirini araşdırmaq məqsədilə istifadə olunub. Eyni zamanda, əldə edilmiş nəticələrin etibarlığını təmin etmək məqsədilə statistik məlumatlar təhlil edilmiş, həmçinin, Azərbaycanda təhsil

miqrasiyasının istiqamətlərinin müəyyənləşdirilməsi üçün sorğu metodundan istifadə edilərək elmi nəticələr əldə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Qloballaşma dövründə miqrasiya proseslərinin sürəti və davamlılığı artmışdır, həmçinin qloballaşma və miqrasiya prosesləri bir-birinə təsir edərək biri digərini şərtləndirən amil kimi çıxış edir.
- Dövlətlərin miqrasiyanın qarşısını almaq cəhdləri effektiv nəticə vermir və qanunsuz miqrasiyanın artmasına səbəb olur, buna görə onun düzgün idarəedilməsi və tənzimlənməsi lazımdır.
- Avropa regionunda immiqrasiya region ölkələrinin iqtisadi inkişafının əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.
- Almaniya və Böyük Britaniyada miqrant axınlarının çox olması bu ölkələrdəki cəlbedici amillərin çoxluğu ilə əlaqədardır.
- Almaniya və Böyük Britaniyanın miqrasiya siyasətinin əsas məqsədi ölkəyə ixtisaslı işçi qüvvəsinin cəlb edilməsi və qanunsuz miqrasiyanın qarşısını almaqdır, bu ölkənin inkişafı və təhlükəsizliyi üçün əhəmiyyətlidir.
- Almaniya və Böyük Britaniya miqrasiya sahəsində beynəlxalq təşkilatların əsas maliyyə dəstəkçisidir, bu baxımdan onların miqrasiya proseslərinin tənzimlənməsində rolu böyükdür.
- Miqrasiya proseslərinin tənzimlənməsi üçün mənşə ölkələrindəki problemlər aradan qaldırılmaldır, bu baxımdan Almaniya və Böyük Britaniya ən çox investisiya qoyan ölkələrdir.
- Azərbaycandan Almaniya və Böyük Britaniya təhsil miqrasiyası xüsusi yer tutur. Bu da Azərbaycandan beyin axının yaranmasına səbəb olur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunan mövzu aktual olduğundan araşdırılan məsələlərdə elmi əhəmiyyət kəsb edir. Bu baxımdan dissertasiya işində aşağıdakı elmi yenilikləri qeyd etmək olar:

- Tədqiqat işində miqrasiya prosesinə əsas elmi yanaşmalar ələ alınaraq, onun iştirakçıları, səbəbləri, formaları, təsirləri hərtərəfli şəkildə təhlil olunmuşdur.
- Miqrasiya prosesinin baş verməsində cəlbedici amillərin rolunun əhəmiyyəti və vacibliyi göstərilərək, formasından və səbəbindən asılı olmayaraq bütün miqrasiya prosesinin baş verməsinin əsasında bu amillərin rolu göstərilmiş və tədqiq edilmişdir.
- Almaniya və Böyük Britaniyada immiqrasiya prosesi mövcud statistik göstəricilər əsasında təhlil olunaraq bu ölkələrin miqrasiyadan asılı olduğu göstərilmişdir.
- Miqrasiyanın Almaniya və Böyük Britaniyanın xarici siyasətinə təsiri araşdırılaraq, beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsində bu ölkələrin rolu qiymətləndirilmişdir.
- Azərbaycanda təhsil alan tələbələr arasında keçirilmiş sorğu əsasında Azərbaycan gəncləri arasında ən çox təhsil üçün üstünlük verilən ölkələrin Almaniya və Böyük Britaniya olması göstərilmiş, bu prosesin Azərbaycan üçün nəticələri tədqiq edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya mövzusu müasir dövrün aktual məsələlərindən biri olduğundan dissertasiyada tədqiq olunan məsələlər də mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Tədqiqatda miqrasiya prosesləri kompleks şəkildə tədqiq olunur, buna görə miqrasiya, demoqrafiya, beynəlxalq münasibətlər sahəsində yazılan elmi işlər və aparılan elmi tədqiqatlarda istifadə edilə bilər. Dissertasiyada gəlinən nəticələr, istifadə edilən məlumatlar bu sahədə çalışan mütəxəssislər üçün, eyni zamanda, tədris prosesində istifadəsi faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin məzmunu və nəticələri müəllifin Azərbaycan Respublikasında və xaricdə müvafiq elmi jurnallarda nəşr olunmuş elmi məqalələrində, eyni zamanda, respublika və beynəlxalq konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında

Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 3 fəsil 10 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işi giriş - 19124, I fəsil - 76207, II fəsil - 97578, III fəsil - 79164, nəticə - 12092 olmaqla ümumilikdə 284165 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır və problemin işlənmə dərəcəsi təhlil edilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən edilir, tədqiqat işi yazılan zaman istifadə olunan müvafiq tədqiqat metodları qeyd olunur, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi göstərilir, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti əsaslandırılır, aprobasiyası və strukturu haqqında məlumatlar verilir.

Dissertasiyanın "**Müasir dövrdə miqrasiya prosesinə konseptual baxış**" adlı birinci fəsil üç paraqrafdan ibarətdir. "**Miqrasiya anlayışı və onun nəzəri-metodoloji əsasları**" adlı birinci paraqrafda tədqiqat işinin vacib tərkib hissəsi olan miqrasiya anlayışının tərifi verilmiş, miqrasiya prosesinin xüsusiyyətlərini izah edən əsas nəzəri yanaşmalar göstərilmişdir. Qeyd edilmişdir ki, miqrasiya dərin və əhatəli bir məzmuna malik olaraq özündə psixoloji, mədəni, iqtisadi və sosial elementləri ehtiva edir. Buna görə miqrasiya anlayışının konkret bir tərif ilə izah edilməsi mümkün deyil. Lakin, ümumi olaraq miqrasiya dedikdə insanların siyasi, sosial və iqtisadi səbəblərə görə fərdi və ya kütləvi şəkildə yer dəyişdirməsi nəzərdə tutulur.

Həmçinin, paraqrafda Ravenştaynın miqrasiya qanunları, Təhriketmə və cəlbetmə, Petersonun miqrasiya modeli, Kəsişən fürsətlər, Neoklassik iqtisadiyyat, Miqrasiya sistemləri, Miqrant şəbəkəsi, Dünya sistemləri, Əmək miqrasiyasının yeni iqtisadiyyatı, İkiyə bölünmüş əmək bazarı, İnstitusional nəzəriyyə kimi əsas miqrasiya nəzəriyyələri təqdim edilir. Bu nəzəriyyələrin hər biri miqrasiyanın baş verməsinin əsasında müxtəlif səbəblərin dayandığını

qeyd edir. Məsələn, Təhriketmə və cəlbetmə nəzəriyyəsinə əsasən miqrasiyanın baş verməsində mənşə ölkəsindəki təhrikedici amillərlə yanaşı, təyinat ölkəsindəki cəlbedici amillər də əsas rol oynayır. Eyni bir ölkədə həm cəlbedici, həm də təhrikedici amillər mövcuddur. Buna görə bu amillər bir bütöv olaraq nəzərdən keçirilməlidir. Onlardan hansının çox olması miqrasiya qərarına təsir edən əsas məqamdır. Kəsişən fürsətlər nəzəriyyəsinə görə iki fərqli məkandakı cəlbedici amillərin təsiri, mənşə ölkəsi ilə həmin məkanlar arasındakı məsafə nəzərə alınaraq təhlil edilməlidir[21]. Bundan əlavə, Neoklassik iqtisadiyyat nəzəriyyəsi miqrasiyanın əmək haqqı fərqinə görə baş verdiyini, Əmək miqrasiyasının yeni iqtisadiyyatı nəzəriyyəsi isə miqrasiya qərarının fərd tərəfindən müstəqil şəkildə verildiyini bildirir. Miqrasiya sistemləri nəzəriyyəsinə görə miqrasiya axını aralarında sosial, mədəni və s. əlaqələr olan ölkələr arasında yaranır. Miqrant şəbəkəsi nəzəriyyəsinə görə isə miqrasiya texnologiya və elmin inkişafı ilə məlumatın yayılması və insanlararası əlaqələrin artması nəticəsində baş verir[22].

Qeyd edilməlidir ki, bu nəzəriyyələr miqrasiya prosesini tək bir səbəbə dayanaraq izah etdiyi üçün, tam əhatəli şəkildə bu prosesi izah edən bir nəzəriyyə mövcud deyil. Həmçinin, bu nəzəriyyələr miqrasiya prosesinin səbəbi kimi əsas olaraq iqtisadi faktorları göstərir. Eyni zamanda, miqrasiya prosesinə də işçi qüvvəsi axını kimi baxılır. Bunun səbəbi də ondan ibarətdir ki, miqrasiya nəzəriyyələri əsasən qərbdəki miqrasiya prosesləri nəzərə alınaraq yaradıldığı üçün məcburi miqrasiya bu nəzəriyyələrdə yer almamışdır. Çünki məcburi miqrasiya əsasən az inkişaf etmiş ölkələrdəki şərtlər səbəbindən baş verir. Həmçinin, məcburi miqrasiyada fərdin istək və seçimləri arxa plana atıldığı üçün miqrasiya nəzəriyyələri fərdlərin seçim edərək iştirak etdiyi miqrasiya proseslərini izah edir.

Birinci fəslin ikinci paraqrafı **“Miqrasiyanın iştirakçıları, səbəbləri, tipləri və təsirləri”** adlanır. Bu yarımfəsildə miqrasiya prosesində iştirak edən şəxslərin bir birindən fərqi, miqrasiyanın hansı

---

[21] Stouffer, A. S. Intervening Opportunities: A Theory Relating Mobility and Distance // American Sociological Review, - 1940, Vol 5, № 6. - p. 845-867.

[22] Levent, E.O. Modern göç teorileri // İstanbul:Tesam Strateji Dergisi, - 2023. № 5, - s. 33-35,

səbəblərdən baş verməsi, miqrasiyanın müddətinə, leqallığına, istiqamətinə və miqrantların iradəsinə görə əsas formaları göstərilmiş, miqrasiyanın mənşə və təyinat ölkəsinə təsirləri izah edilmişdir.

Ümumiyyətlə miqrasiya prosesində iştirak edən şəxs miqrant adlansa da, qaçqın, miqrant, məcburi köçkün, sığınacaq axtaran şəxs anlayışlarını fərqləndirmək lazımdır. Şəxsin qaçqın hesab olunması üçün o qaçqın olmanın xüsusiyyətlərini daşımalıdır. Qaçqınlar 1951-ci il Cenevrə Konvensiyansında verilmiş səbəblərdən dolayı öz yaşayış yerini tərk edərək beynəlxalq sərhədləri keçmiş şəxslər hesab olunur. Əgər şəxs bu səbəblərdən dolayı öz yaşayış yerini tərk edir, lakin ölkə sərhədlərini keçmirsə, o zaman o məcburi köçkün sayılır. Şəxsə qaçqın statusu verilənədək olan müddətdə isə sığınacaq axtaran şəxs hesab olunur.

Həmçinin, qaçqınlara beynəlxalq hüquqda xüsusi status və qoruma verilir, bu status onlara əlavə güzəşt və imtiyazlar verir. Miqrantların isə bu cür hüquqları yoxdur. Bundan əlavə, son dövrlərdə təbiət hadisələri səbəbindən öz yaşayış yerini tərk etmək məcburiyyətində qalmış insanlar üçün "iqlim qaçqını" ifadəsi işlədilir. Lakin, Cenevrə Konvensiyasında şəxsin qaçqın hesab olunması halları arasında təbii amillər qeyd olunmayıb. Bu səbəbdən qlobal iqlim dəyişikliyinin təsirləri nəticəsində öz yaşayış yerlərini dəyişmək məcburiyyətində qalan insanlar "iqlim qaçqını" kimi tanınsalar da, onların xüsusi hüquq və imtiyazları yoxdur.

Miqrasiya prosesi baş verirsə onun əsasında bir problem dayanır. Bu problem miqrasiyanın əsas baş vermə səbəbi kimi çıxış edir. Miqrasiyanın baş vermə səbəbləri çox olsa da onları iqtisadi, siyasi, sosial və təbii səbəblər kimi qruplaşdırmaq mümkündür. Müasir dövrdə miqrasiyanın əsas səbəbi kimi işsizlik, gəlirlərin azlığı, ağır iş şəraiti və s kimi iqtisadi səbəblər çıxış edir. Təsadüfi deyil ki, dünya üzrə miqrantların böyük əksəriyyətini də məhz işçi miqrantlar təşkil edir. Sosial səbəblər də əslində iqtisadi səbəblərlə əlaqədardır. İqtisadi imkanların zəif olması, təhsil, sosial, səhiyyə və nəqliyyat kimi xidmətlərin keyfiyyətli və əlçatan olmamasına səbəb olur ki, bu da miqrasiya prosesinə səbəb olur.

Son dövrlərdə miqrasiyanın xüsusilə kütləvi miqrasiyanın baş verməsində siyasi və təbii amillərin rolu artmaqdadır. Dünyada baş

verən siyasi proseslər, daxili qarşıdurmalar və müharibələrin artması siyasi səbəblərdən dolayı öz yaşayış yerini tərk edən insanların da sayının artmasına səbəb olmuşdur. Bu baxımdan Yaxın Şərq, Afrika regionu əsas emiqrasiya mərkəzi kimi çıxış edir. Miqrasiyanın digər səbəbi olan təbii amillər birbaşa insan fəaliyyəti və qlobal istiləşmə nəticəsində baş verir. Bu qlobal ekoloji problemlərin insanların yaşayış areallarını azaltması nəticəsində yeni miqrasiya dalğaları yaranır və "iqlim qaçqını" kimi anlayışların meydana gəlməsinə səbəb olmuşdur. Bu paraqrafda bu anlayışın izahı və onun qaçqınlardan fərqli xüsusiyyətləri göstərilmişdir.

Eyni zamanda miqrasiya müddətinə görə daimi və müvəqqəti, miqrantın iradəsinə əsasən könüllü və ya məcburi, istiqamətinə görə daxili və ya xarici, leqallığına görə isə qanuni və qeyri qanuni ola bilir. Bu baxımdan paraqrafda bu formaların hansı səbəbdən baş verməsi və əsas xüsusiyyətləri izah edilmişdir.

Həmçinin, miqrasiya ölkənin iqtisadi, mədəni, siyasi və sosial sferasında bir çox dəyişikliyə səbəb olur. Bu dəyişikliklər həm mənşə ölkəsində, həm də təyinat ölkəsində özünü göstərir. Miqrasiyanın hər iki ölkə baxımından mənfi və müsbət təsirləri mövcuddur. Miqrasiyaya səbəb olan amillər nəzərdən keçirildiyində eyni amillərin miqrasiya prosesinin nəticəsi olaraq da meydana çıxdığını görürük. Məsələn, iqtisadi problemlər səbəbindən baş verən miqrasiya gedilən ölkədə yeni iqtisadi problemlər yaradır. Bu baxımdan yarımfəsildə miqrasiyanın əsas təsirləri və onun nəticələri araşdırılmışdır.

Birinci fəslin üçüncü yarımfəsli **"Qloballaşma dövründə miqrasiya prosesinin səciyyəvi xüsusiyyətləri"** adlanır**.** Bu paraqrafda həyatın müxtəlif sferalarına təsir edən qloballaşmanın miqrasiya prosesinə təsirləri və onun yeni xüsusiyyətlər qazanmasındakı rolu göstərilmişdir.

Qeyd edilmişdir ki, qloballaşma nəticəsində miqrasiya prosesi daha da artaraq qlobal xarakter almışdır. Artıq miqrasiyanın qarşısının alınması, qeyri-mümkündür, sadəcə onun düzgün idarə edilməsi lazımdır. Qloballaşma şəraitində texnologiyanın inkişafı və yayılması miqrasiya prosesinin sürətinin artmasına və bu prosesin baş vermə müddətinin azalmasına səbəb olur. İnformasiya axını çox sürətli bir şəkildə baş verir ki, bu da insanların miqrasiya etmək qərarlarına təsir

göstərir. Bundan əlavə siyasi qloballaşma insanların hərəkətini daha da asanlaşdıraraq, maneəsiz sərhəd keçidlərinin yaranmasına gətirib çıxarır. Sosial və mədəni qloballaşma isə multikultural mühitin formalaşmasına səbəb olur ki, bu da miqrantların getdikləri yerə daha tez uyğunlaşmasına səbəb olur, eyni zamanda, bu miqrasiyanın istiqamətinə də öz təsirini göstərir. Həmçinin, mədəni əlaqələrin mövcudluğu, insanların mənşə ölkəsi ilə əlaqə saxlamaq imkan və vasitələrinin artması miqrasiyanın daimiləşməsi ilə nəticələnir. Buradan da aydın görünür ki, qloballaşma miqrasiya nəticəsində yaransa da, o özü də miqrasiyanın yaranmasına təsir göstərir. Bu iki proses bir-birinə təsir edərək biri digərini şərtləndirir.

**“Almaniya və Böyük Britaniyada miqrasiya prosesinin əsas xüsusiyyətləri və perspektivləri”** adlı ikinci fəslin **“Avropa regionu dünyanın əsas immiqrasiya mərkəzi kimi”** adlı birinci yarımfəslində dünyanın  əsas immiqrasiya mərkəzlərindən biri olan Avropa regionuna miqrant axınlarının əsas səbəbləri, regionda miqrantları cəlb edən amillər araşdırılmışdır.

Qeyd edilmişdir ki, Avropa regionuna miqrant axının baş verməsinin əsas səbəbi regionda cəlbedici amillərin çoxluğu ilə əlaqədardır. Belə ki, həyat standartlarının yüksək olması, iqtisadi inkişaf, gəlirlərin çoxluğu, sosial xidmətlərin əlçatanlığı regionu miqrantlar üçün cəlbedici edir. Həmçinin region ölkələrində demoqrafik böhranın baş verməsi, əhalinin azalması region ölkələrinin miqrant axınında maraqlı olması və bu istiqamətdə siyasət aparmalarına səbəb olmuşdur.

Eyni zamanda, Avropaya yönələn əsas miqrant axınları, bu axınların gəldiyi əsas mənşə ölkələri araşdırılmış, onların Avropaya çatmaq üçün istifadə etdiyi marşutlar göstərilmişdir. Qeyd edilmişdir ki, 1950-ci illərdən 1970-ci illərin ortalarına qədər olan müddətdə Avropaya miqrasiya əsasən işçi qüvvəsi axını kimi iqtisadi səbəblərdən baş vermişdir. Belə ki, müharibədən sonrakı iqtisadi inkişaf dövründə ehtiyac olan işçi qüvvəsi digər ölkələr hesabına ödənilməyə başlanılmışdır. 1970-1990-cı illəri əhatə edən dövr isə əvvəlki müddətdə işçi qüvvəsi kimi gələn miqrantların öz ailələrini də Avropaya gətirməsi ilə xarakterizə olunur. Bu da, regionda miqrantların sayının daha da artmasına səbəb olmuşdur. 1980-ci illərin

ortalarından 2000-ci ilə kimi olan dövrdə miqrasiya iqtisadi deyil, daha çox siyasi - müharibə, rejim dəyişikliyi, daxili qarşıdurma və təhlükəsizlik kimi səbəblərə görə baş vermişdir. SSRİ-nin dağılması, Şərqi Avropada baş verən dəyişikliklər, dövlətlərin parçalanması nəticəsində yaranan münaqişələr böyük sayda insanın öz yaşayış məskənlərindən ayrı düşməsinə səbəb oldu[23]. Daha sonra Avropada miqrasiya prosesinə təsir edən ən böyük amil əlbəttə ki, 11 sentyabr 2001-ci il tarixində ABŞ-da baş vermiş terror hadisəsi olmuşdur. Bu hadisə miqrantlara qarşı münasibətin dəyişməsinə, ksenofobiya hallarının yaranmasına, həmçinin, regionda miqrantların sayının çoxalması onların sosial yük olaraq görülməsinə səbəb olmuşdur. Bundan sonra Avropa ölkələrinin miqrasiyanın qarşısını almaq cəhdləri Avropaya qanunsuz miqrasiya axınlarının yaranması ilə nəticələndi.

Qeyd edək ki, Avropaya əsas qanunsuz miqrant axınları Qərbi Aralıq dənizi, Mərkəzi Aralıq dənizi, Qərbi Balkan, Şərq sərhədləri və Şərqi Aralıq dənizi marşrutları vasitəsilə baş verir. Miqrantın hansı marşrutdan istifadə edərək gəlməsi, onun hansı ölkədən və hansı məqsədlə gəlməsinin müəyyənləşdirilməsi üçün vacib əhəmiyyət daşıyır.

Aİ tərəfindən Frontex, Eurodac, Eurosur kimi qurumların yaradılması və fəaliyyəti qanunsuz miqrasiyanı azaltsa da, qarşısını tam ala bilməmişdir. Bugün Avropa regionuna miqrasiya axını yüksək olaraq qalır, bunun əsas səbəbi də təhlükəsizlik, yüksək rifah səviyyəsi, yüksək əmək haqqı, ədalətli cəmiyyət kimi cəlbedici amillərin çoxluğu, eyni zamanda, əsas emmiqrasiya mərkəzləri olan Afrika və Yaxın Şərq regionuna yaxın yerləşməsidir.

**“Almaniya və Böyük Britaniyada miqrasiya prosesinə tarixi baxış və əsas miqrasiya göstəriciləri”** adlı ikinci yarımfəsildə miqrant sayına görə ilk beşlikdə olan Almaniya və Böyük Britaniyada İkinci Dünya müharibəsindən sonrakı dövrdə baş verən miqrasiya prosesləri araşdırılmış, əsas miqrasiya göstəriciləri verilmiş, gələn miqrantların gəlmə səbəbləri, onların mənşə ölkəsinə görə bölgüsü göstərilmişdir.

---

[23] Stalker, P. Migration Trends and Migration Policy in Europe // International Migration, - 2002. Vol. 40, №. 5, - p.150-179

Qeyd edilmişdir ki, hər iki ölkədə miqrasiya axını İkinci Dünya müharibəsindən sonra xüsusilə artmışdır. Bunun səbəbi iqtisadiyyatın inkişafı olmuşdur ki, bu ölkələrdə immiqrasiyanın əsas səbəbinin iqtisadi amillər olduğunu deyə bilərik. Bu ölkələrin daha çox seçilməsinin səbəbi də cəlbedici amillərin çoxğulu ilə əlaqadardır. İqtisadi inkişafın yüksək olması, dövlətin uğurlu sosial siyasəti, yardıma ehtiyacı olanlara dövlət dəstəyinin olması, təhsilin və səhiyyənin yüksək inkişaf etməsi kimi amillər miqrantları daha çox cəlb edir. Eyni zamanda, Almaniya və Böyük Britaniya həyat keyfiyyətinin (müvafiq olaraq 13 və 23-cü yerlər) və əhalinin xoşbəxtlik səviyyəsinin ( müvafiq olaraq 24 və 20-ci yerlər) ən yüksək olduğu ölkələr arasındadır[24]. Bu cəlbedici amillər təkcə iş və təhsil məqsədi ilə edilən miqrasiyada deyil, eyni zamanda, sığınacaq axtaranların da bu ölkələrə müraciət etməsinə səbəb olur. Belə ki, münaqişə zonalarından qaçqın və məcburi köçkünlər ilk olaraq qonşu dövlətlərə sığınsalar da onların sonrakı mobilliyinə cəlbedici amillər daha çox təsir göstərir. Əgər onların öz ölkəsindən qaçma səbəbi həyatı üçün təhlükə olmasıdırsa, daha sonra Avropa ölkələrinə miqrasiya etməsinin əsas səbəbi iqtisadi və daha yaxşı həyat arzusundan qaynaqlanır.

Bu ölkələrin digər oxşar cəhəti əhalinin təbii azlığıdır ki, artan iqtisadi inkişaf nəticəsində yaranan işçi tələbinin ödənilməsində miqrasiya xüsusilə önəmli rol oynayır. Gələcəkdə də əhalinin təbii artımı azalan istiqamətdə davam edəcəyi gözlənilir. Bu tendensiya davam etdiyi müddətdə miqrant axınları da bu ölkələrə istiqamətlənəcək.

Həmçinin qeyd edilməlidir ki, hər iki ölkədə immiqrasiya emiqrasiyadan daha böyükdür və xalis miqrasiya müsbətdir. Bu da hər keçən il əhalinin sayında miqrantların artmasına səbəb olur. Statistik göstəricilərə əsasən emiqrasiya çox olsa da bu ölkələri emiqrasiya mərkəzi adlandırmaq düzgün deyil, bunun əsas səbəbi də emiqrasiyanın əslində bu ölkəyə gələn immiqrantların bir hissəsinin zamanla ölkəni tərk etməsi nəticəsində baş verir.

---

[24] Standard of Living by Country | Quality of Life by Country 2024 : [Electronic resource], URL: https://worldpopulationreview.com/country-rankings/standard-of-living-by-country

Bundan əlavə, hər iki ölkədə daxili miqrasiya könüllü xarakter daşıyır və əsasən ölkə əyalətləri arasında iş və təhsil məqsədilə, xüsusilə, gənclər arasında baş verir. Bu ölkələrdəki daxili miqrasiyanın inkişaf etməkdə olan ölkələrdən əsas fərqi daxili miqrasiyanın tək bir yerə cəmlənməməsidir.

**"Miqrasiya prosesinin Almaniya və Böyük Britaniyanın sosial-mədəni, iqtisadi və siyasi sferasına təsiri"** adlanan üçüncü yarımfəsildə miqrasiya prosesinin Almaniya və Böyük Britaniyada həyatın müxtəlif sferalarına təsiri araşdırılmış, həmin ölkələrdə hansı dəyişikliklərə səbəb olduğu göstərilmişdir. Həmçinin, mövcud statistik göstəricilər əsasında miqrant və qaçqın axınının qeyd edilən ölkələrə təsirinin olub-olmadığı araşdırılmışdır.

Qeyd edilmişdir ki, miqrasiya sosial həyatın bir çox sahələrinə, musiqi, yemək vərdişləri, idman, memarlıq üslubuna öz təsirini göstərir. Əslində bu təsirlər mədəni qloballaşmanın təzahürü kimi ortaya çıxır. Yəni, immiqrasiya prosesinin qloballaşmanı daha da sürətləndirməsinin nəticəsidir.

Miqrasiyanın təsirlərinə baxdıqda hər iki ölkədə miqrantlar olduqca vacibdir. Çünki, ölkə iqtisadiyyatının artan işçi tələbi miqrantlar hesabına ödənilir. Bu ölkələrin iqtisadi inkişafı və həyat səviyyəsi sığınacaq müraciətlərinin artmasına səbəb olur ki, bu da sosial xərcləri artırdığı düşüncəsi ilə əhali arasında narazılıq yaradır. Bu narazılıqlar miqrantlara qarşı ayrı-seçkilik, eyni zamanda diskriminasiya olunmasına şərait yaradır ki, bu da miqrantların daha radikallaşmasına səbəb olur, eyni zamanda, cəmiyyətə qarşı münasibətinin dəyişməsinə və cinayət hallarının artmasına şərait yaradır. Həmçinin, ölkəyə gələn, ancaq dil və sosial mühitdən istifadə edə bilməyən şəxs öz adət və ənənələrinə daha çox bağlanır. Öz adətlərindən kənar bir hərəkət onda daha çox qıcıq və nifrətin yaranmasına gətirib çıxarır. Bu baxımdan miqrasiyanın idarə olunması və miqrantların inteqrasiyası olduqca vacibdir.

Hər iki ölkənin daxili siyasi həyatına miqrantların təsiri böyükdür. Belə ki, miqrantlar və miqrasiya ilə bağlı siyasət hər iki ölkənin seçki nəticələrinə təsir edən başlıca məqamdır. Bu Almaniyada sağların seçkilərdə səs qazanmasına səbəb olduğu halda, Böyük Britaniyada Mühafizəkarların səs itirməsində böyük rol

oynamışdır.

Hər iki ölkədə fəaliyyət göstərən diasporalar daha çox məcburi miqrasiya iştirakçıları tərəfindən yaradılıb. Çünki, onlar öz ölkələrinə qayıda bilmədiklərinə və ya qayıtmaq istəmədiklərinə görə təyinat ölkəsində birləşərək öz ölkələri üçün aktiv fəaliyyət göstərirlər.

Dissertasiyanın **“Müasir miqrasiya prosesinin Almaniya və Böyük Britaniyanın xarici siyasətinə təsiri”** adlı üçüncü fəsili dörd paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı **“Almaniya və Böyük Britaniyanın miqrasiya siyasətinin əsas istiqamətləri”** adlanır.

Bu fəsildə hər iki ölkənin miqrasiya siyasətinin əsas istiqamətləri və onların reallaşdırılması üçün həyata keçirilən tədbirlər öz əksini tapmışdır.

Qeyd edilmişdir ki, hər iki ölkənin miqrasiya siyasətinin əsas istiqamətlərdən biri ixtisaslı işçi qüvvəsinin ölkəyə cəlb edilməsidir. Beyin axınının, ölkəyə cəlb edilməsi Almaniya və Böyük Britaniyada istehsalı, eyni zamanda, iqtisadi inkişafı artırdığı halda, mənşə ölkələrində isə ixtisaslı işçi qüvvəsi çatışmazlığı problemini yaradır. Həmçinin, hər iki ölkə bu istiqamətdə olan siyasətləri daha da yumşaldaraq və mövcud maneələri aradan qaldıraraq ölkəni ixtisaslı əcnəbi işçi qüvvəsi üçün daha cəlbedici etmək niyyətindədirlər.

Almaniyadan fərqli olaraq Böyük Britaniyanın miqrasiya siyasətinin əsas istiqamətlərindən biri də, xalis miqrasiyanın qarşısının alınmasıdır. Hökümətin 2024-cü ildə qəbul etdiyi qərarlar da məhz xalis miqrasiyanın azaldılması məqsədi daşıyır. Bunun əsas səbəbi isə ölkəyə gələn miqrantların ölkənin ehtiyacı olandan daha çox olmasıdır. Ona görə də ehtiyac olan qədər və istənilən xüsusiyyətlərə malik miqrantın cəlb edilməsi əsas hədəflərdəndir.

Qanunsuz miqrasiya ilə mübarizədə hər iki ölkə daha ciddi şəkildə mübarizə aparmağa çalışır. Bunun əsas səbəbi isə qanunsuz miqrasiya cinayətkarlıq, terror, qaçaqmalçılıq kimi problemlər yaradaraq ölkənin həm təhlükəsizliyi üçün təhdid hesab olunur, həm də inkişafa maneə olan amillərdəndir. Qanunsuz miqrasiya keçidlərində iki ölkə arasındakı əsas fərq ondan ibarətdir ki, əgər Almaniyada qanunsuz miqrasiya əsasən quru sərhədləri vasitəsilə baş verirsə, Böyük Britaniyanın quru sərhədi olmadığı üçün əsas keçidlər kiçik qayıqlarla La Manş boğazı vasitəsilə baş verir. Qanunsuz

miqrasiya ilə mübarizədə Almaniya Aİ üzvü olduğu üçün, həm Dublin razılaşmasının tərəfdaşlarından biridir və bu sahədə Frontex, Europol, Eurojust kimi təşkilatlarla birlikdə mübarizə aparır. Böyük Britaniya isə Aİ-dən ayrılması səbəbindən bu mexanizmlərdən kənarda qalmışdır və təkbaşına mübarizə aparmaq məcburiyyətindədir. Qanunsuz miqrasiya ilə mübarizə sahəsində Böyük Britaniyanın daha sərt qərar qəbul edir ki, bu da ölkədə xalis miqrasiya səviyyəsinin çox olması ilə əlaqədardır.

Hər iki ölkənin inteqrasiya siyasətinə baxdıqda isə Almaniyanın inteqrasiya siyasətinin daha əhatəli və geniş məzmunlu olduğu görülür. Çünki, Almaniyada sığınacaq hüququ olanlar və qaçqınların sayı daha çoxdur. Bu da, Almaniyanın birbaşa Konstitusiyasında qeyd olunan öhdəliyindən irəli gəlir. Onları cəmiyyətə adaptasiya etmək ölkənin əsas məqsədlərindən biridir. Digər bir fərq ondan ibarətdir ki, Almaniyada inteqrasiya imkanlarından gəlmə məqsədindən asılı olmayaraq bütün miqrantlar istifadə edə bilər. Böyük Britaniyada isə bu siyasət sadəcə qaçqınlara şamil ounur. Həmçinin, qaçqınlara verilən imtiyaz və güzəştlər Almaniyada daha çoxdur ki, bu da onların daha çox Almaniyaya miqrasiya etməsində vacib rol oynayır.

Dissertasiyanın üçüncü fəslinin ikinci paraqrafı **"Almaniya və Böyük Britaniyanın digər dövlətlərlə münasibətlərində miqrasiya amili"** adlanır. Bu yarımfəsildə miqrasiyanın bu ölkələrin xarici siyasətinə təsiri, miqrasiya siyasətindən irəli gələn məqsədlərin reallaşdırılması üçün həyata keçirilən əməkdaşlıqlar və bu istiqamətdə imzalanan müqavilələr təhlil olunmuşdur.

Bu yarımfəsildə göstərilir ki, həm Almaniyanın, həm də Böyük Britaniyanın xarici siyasətində miqrasiya amili həmin ölkələrin miqrasiya siyasətindən irəli gələn məqsədlərin həyata keçirilməsinə yönəlib. Hər iki ölkə üçün oxşar cəhət qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində əməkdaşlıqların artmasıdır. Fərq isə ondan ibarətdir ki, Almaniyanın xarici siyasətində, eyni zamanda, çoxistiqamətli miqrasiya müqavilələri də mühüm yer tutur. Bu da əsasən ölkənin miqrasiya siyasətindən irəli gələn məqsədlərlə uzlaşır. Belə ki, Almaniyanın miqrasiya müqavilələrinin məzmununu, qeyri qanuni miqrantların qaytarılması ilə yanaşı, həmin ölkələrdən qanuni

işçilərin Almaniyaya miqrasiya etməyə təşviq edilməsi, həmin ölkələrin inkişafına investisiya qoyularaq onların sabit ölkəyə çevrilməsinə nail olunması, bununla da, həmin ölkələrdən kütləvi miqrant axınlarının azaldılması təşkil edir. Həmin ölkələrdən qanuni miqrasiyanın təşviq edilməsi Almaniyanın ehtiyacı olan sahələrdə və ixtisaslarda olan insanların qəbulunu nəzərdə tutur.

Böyük Britaniyanın xarici siyasətində digər ölkələrdən işçi qüvvəsi qəbulunu nəzərdə tutan əməkdaşlılar mövcud deyil. Bu sahədə əsas istiqamət qanunsuz miqrasiyanın qarşısının alınması və miqrant qaçaqmalçılığı ilə mübarizədir. Bu da, Böyük Britaniyanın miqrasiya siyasətinin xalis miqrasiyanı azaltmaq istiqaməti ilə uzlaşır. Xüsusilə, Brexit sonrası bu əməkdaşlıqların sayı artmaqdadır. Bunun əsas səbəbi də Brexitlə Böyük Britaniyanın Aİ-nin miqrasiya siyasətindən və tənzimləmələrindən kənarda qalmasıdır. Eyni zamanda, Böyük Britaniya ada dövləti olduğundan qanunsuz miqrasiya ilə mübarizə daha çətindir və bu da əməkdaşlığı zəruri edir.

Üçüncü fəslin **“Beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsində Almaniya və Böyük Britaniyanın rolu”** adlı üçüncü paraqrafında miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində əsas rol oynayan BMqT, BMT QAK, MSİBM və Aİ kimi təşkilatların fəaliyyəti araşdırılmış və onların fəaliyyətində Almaniya və Böyük Britaniyanın rolu göstərilmişdir. Almaniya və Böyük Britaniya beynəlxalq miqrasiya proseslərinin tənzimlənməsində rol oynayan təşkilatların maliyyə dəstəkçiləri olmaqla yanaşı, onların həyata keçirdiyi bir çox layihələrin əsas iştirakçılarıdır. Almaniyanın bu təşkilatlarla əməkdaşlığı daha çox miqrasiya prosesinin tənzimlənməsi, miqrantların həssas qrupuna və qaçqınlara dəstək göstərilməsi istiqamətindədir. Böyük Britaniya isə daha çox miqrant qaçaqmalçılığı və insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlıq edir. Bununla yanaşı hər iki ölkə mənşə ölkələrindəki problemlərin aradan qaldırılması və onların iqtisadi inkişafı istiqamətində əsas dəstəkçilərdəndir.

Qeyd edək ki, beynəlxalq təşkilatlar dövlətlərin fəaliyyətini birləşdirməklə mövcud problemlərlə daha effektiv mübarizə aparmağa imkan verir. Lakin, bu sahədə əməkdaşlıq hələ kifayət qədər effektiv deyil, bu əməkdaşlığın daha da artırılması labüddür, çünki artıq

miqrasiya prosesi tək bir dövlətin və ya regionun deyil, qlobal dünyanın problemidir. Bu problemin həlli yolu isə qlobal əməkdaşlıq nəticəsində mümkündür

Üçüncü fəslin **"Azərbaycandan emiqrasiya prosesinə Almaniya və Böyük Britaniyanın miqrasiya siyasətinin təsiri"** adlı dördüncü paraqrafında Azərbaycanda miqrasiya dinamikası verilmiş və Azərbaycandan təhsil miqrasiyasının rolu göstərilmişdir. Qeyd edilmişdir ki, son illərdə əsas axın daha çox Avropa ölkələrinə doğru yönəlir. Bu miqrasiyanın iştirakçıları isə əsasən gənclər və ixtisaslı işçi qüvvəsidir. Burada təhsil miqrasiyası xüsusilə əhəmiyyətli yer tutur. Xaricdə təhsil almaq istəyən azərbaycanlı gənclərin böyük bir hissəsi Avropaya yönəlir. Bu baxımdan ali təhsil müəssisələrində təhsil alan 1545 tələbə arasında keçirilmiş sorğuya əsasən də, müəyyən olunmuşdur ki, gənclərin təhsil üçün əsas hədəf ölkəsi Almaniya, ABŞ və Böyük Britaniyadır, Eyni zamanda, Almaniyada təhsil almaq istəyən gənclərin ~42%-nin, Böyük Britaniyada isə ~20%-nin təhsil aldıqdan sonra geri qayıtmaq niyyətində olmadığını bildirməsi Azərbaycandan beyin axını kütləsinin yaranacağı deməkdir. Bu isə insan kapitalı ilə yanaşı, maliyyə kapıtalının da itirilməsi ilə nəticələnir.

Həmçinin, qeyd edilmişdir ki, Almaniya və Böyük Britaniyanın ölkəyə ixtisaslı işçi qüvvəsinin cəlb edilməsi istiqamətində miqrasiya siyasəti aparması və ölkədə təhsil alan gənclər üçün müəyyən güzəştlər tətbiq etməsi, təhsilalanların bu ölkələrdə daimi qalması ilə nəticələnir.

Tədqiqatın **"Nəticə"** hissəsində tədqiqat işinin yekun məsələləri qeyd edilmiş, ümumiləşdirmələr aparılmış həmçinin də problemin həlli ilə bağlı tövsiyələr verilmişdir. Qeyd olunur ki, müasir dövrdə miqrasiya prosesinin əsas xüsusiyyətlərindən biri onun sürətinin və intensivliyinin artması və beyin axını problemidir. Qloballaşmanın təsiri ilə yaranan bu xüsusiyyətlər miqrasiya prosesinin də dərinləşməsinə səbəb olur. Digər bir problem miqrasiyanın iştirakçılarının say və çeşidinin artmasıdır ki, artıq "iqlim qaçqını" kimi yeni miqrant qrupları meydana gəlməkdədir. Həmçinin, qanunsuz miqrasiya da problemlərdən biri olaraq qalmaqdadır. Bu bir tərəfdən dövlətlərin təhlükəsizliyinə təhdid

yaradır, digər tərəfdən miqrasiya prosesinə nəzarəti çətinləşdirir. Bu problemin qarşısının alınması düzgün miqrasiya siyasəti və mənşə ölkələri ilə əməkdaşlıqla mümkündür. Bu baxımdan Almaniya və Böyük Britaniya miqrasiya siyasətini qeyd etmək lazımdır. Çünki, bu ölkələr, həm miqrasiyadan özləri üçün faydalı bir şəkildə istifadə edirlər, eyni zamanda, qanunsuz miqrasiyanın qarşısının alınması, mənşə ölkələrindəki problemlərin aradan qaldırılması istiqamətində beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər ki, bu da beynəlxalq miqrasiya proseslərinin nizamlanmasında böyük rol oynayır. Həmçinin, yekunda miqrasiya artıq qarşısıalınmaz bir problem olduğu üçün onu dayandırmaq yox, düzgün və ölkələrə fayda verəcək şəkildə idarə edilməsi, fərqli miqrant qruplarının hüquqlarının tənzimlənməsi üçün bu sahədə olan hüquqi tənzimləmələrin təkmilləşdirilməsi, eyni zamanda, Azərbaycandan beyin axını miqrasiyasının olduğu, üçün onun qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görülməsi tövsiyə edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Miqrasiya prosesinə səbəb olan amillər // “Heydər Əliyev və Azərbaycan Respublikasının müasir innovativ inkişafı” mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. Bakı: Aspoliqraf. – 2021. - s. 134-141
2. Miqrant və qaçqın anlayışlarının fərqli xüsusiyyətləri // - Bakı: “Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. – 2021. № 2(69). - s.123-130
3. İqlim dəyişikliyi miqrasiyanın əsas təkanverici amillərindən biri kimi // -Bakı: “İnsan və biosfer”(MaB, UNESKO). Azərbaycan milli komitəsinin əsərləri. – 2023. № 18. - s.173-184.
4. Rusiya-Ukrayna müharibəsinin Avropada miqrasiya prosesinə təsiri // - Bakı: Geostrategiya” ictimai-siyasi, elmi-nəzəri jurnal. – 2024. № 4(82). - s. 84-88

5. Müasir dövrdə qloballaşma və miqrasiya proseslərinin qarşılıqlı əlaqəsi // AZERBAIJAN 2th. INTERNATIONAL CONGRESS OF SCIENTIFIC RESEARCH (Strengthening International Relations for Sustainable Development in Azerbaijan). – Bakı: 2024. - s. 299-305
6. Impact of the migration process on the country of destination (in the case of the UK) // Проблемы современных интеграционных процессов. Пути реализации инновационных решений: сборник статей по итогам Международной научно-практической конференции. - Стерлитамак: АМИ, 2024, - s. 45-48
7. Müasir dövrdə Almaniyanın miqrasiya siyasəti // - Bakı: Geostrategiya" ictimai-siyasi, elmi-nəzəri jurnal. – 2024. № 5(83) - s. 27-31
8. The influence of pull factors in the migration process (case of Germany) // Одеса: Науковий журнал «Politicus». – 2024. № 4. - s. 137-141
9. Müasir dövrdə Böyük Britaniyada miqrasiya prosesləri // - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi nəzəri jurnal, - 2024. № 3(87). - s.241-248
10. Müstəqillik dövründə Azərbaycanda miqrasiya prosesləri // "Elm və təhsilin əsasları" XI Beynəlxalq elmi konfrans. – Bakı: 2024. - s. 33-36

Dissertasiyanın müdafiəsi "15" may 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küçəsi, 74.

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "8" aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 03.04.2025
Kağızın formatı:A5
Həcm: 39.145
Tiraj:100